Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

06.05.2019-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

# Q Ə R A R I

Protokol № 8

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1. Yaz imtahan sessiyasına və Dövlət Attestasiya imtahanına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində fakültə kollektivinin vəzifələri barədə dekanlığın təqdim etdiyi məruzə qənaətbəxş hesab edilsin;

2. Fakültə Metodik Komissiyasının sədri prof. İ.Ağayevin hesabatı qənaətbəxş hesab edilsin;

3. ATU-nun Ftiziatriya kafedrasının müdiri, dos. R.Bayramovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Fakültə Metodik Komissiyasının yoxlamalar zamanı aşkar etdiyi çatışmamazlıqlar kafedraların iclasında əməkdaşların diqqətinə çatdırılsın və bu çatmamazlıqların ən qısa zamanda aradan qaldırılması üçün lazımi tədbirlər görülsün;

2. Dekanlığın kafedralara təqdim etdiyi yekun qiymətləndirmə vərəqələrinin vaxtında və obyektiv doldurulmasına, vərəqələrdə düzəlişlərin aparılmamasına ciddi nəzarət etsinlər;

3. Müəllimlər tərəfindən dərs jurnallarının və fərdi iş planlarının, eləcə də tədris yükü jurnallarının vaxtında yazılmasına nəzarət etsinlər;

4. Müəllimərin dərs jurnallarında olan məlumatlarla yekun qiymətləndirmə vərəqələrdəki məlumatların uyğunluğuna nəzarət etsinlər;

5. İmtahana hazırlıqla əlaqədar kafedralarda tələbələr üçün məsləhət saatları təşkil edilsin və məsləhət saatlarının qrafiki dekanlığa təsdim edilsin;

6. FEŞ-nın hər bir iclasından sonra şurada müzakirə olunan məsələlər kafedra iclasında əməkdaşların nəzərinə çatdırılsın və həmin iclasın protokolundan çıxarış dekanlığa təqdim edilsin.

III. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva